Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Söz-fikir azadlığından sui-istifadənin əsasları - qanunvericilik aktları, ya qeyri-peşəkarlıq...

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

**Azərbaycanda söz və məlumat azadlığı qanunla tənzimlənir. Amma söz azadlığının olması o demək deyil ki, hər fürsətdə ondan sui-istifadə edilməlidir, qayda pozuntusuna yol verilməlidir. Söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi istiqamətində ötən illər ərzində dövlət səviyyəsində çox böyük işlər həyata keçirilib. İli-ildən bu sahənin daha da təkmilləşdirilməsi üçün addımlar atılır.**



Qanunvericilik, hüquqi aktlar bizə söz, məlumat, fikir azadlığı verir və bunlardan qədərində istifadə etməsək bu yaxşı nəticə vermir.

Dahi Nizami demişkən:

Sözün də su kimi lətafəti var,

Hər sözü az demək daha xoş olar...

Amma təəssüflər olsun ki, bir sıra hallarda dövlət qanunlarının verdiyi söz azadlığından aşırı sui-istifadə hallarını müşahidə edirik. Bir qisim insanlar anlamaq istəmirlər ki, söz azadlığından aşırı sui-istifadə etməklə cəmiyyətin informasiya təhlükəsizliyinə zərbə vurur. Heç şübhəsiz, belələri ilk növbədə dövlətin qanunlarını pozur. Bu isə əsasən o şəxslərin qeyri-peşəkarlığından irəli gəlir. Bilirik ki, son dövrlər xüsusən də sosial şəbəkə hesablarında, sosial mediada və bəzi saytlarda dövlətin informasiya siyasətinə, söz və məlumat azadlığına zidd olan addımlar sərgilənir. Qadağan olunmuş informasiyanın, video görüntülərin, dəqiqləşdirilməmiş xəbərlərin yayılması halları qarşısının alınması üçün dövlət səviyyəsində ciddi tədbirlər görülür. Bu gün bizim üçün əsas məsələlərdən biri cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunmasıdır ki, buna da hər əli qələmli töhfə verməyə çalışmalıdır.

### Qanun söz azadlığını müdafiə edir, sui-istifadəni yox...

Qeyd etdiyimiz kimi, qanunlarımız söz və məlumat azadlığının inkişafını təmin edir və media subyektləri də bu qanunlara riayət etməlidir. "Media haqqında" Azərbaycan Respublikasının Qanunu da söz azadlığını və cəmiyyətin informasiya təhlükəsizliyini müdafiə edir, özündə əks etdirir. Yəni "Media haqqında" Azərbaycan Respublikasının Qanununda informasiyanın hansı qaydalarda yayılması, burada hansı tələblərə riayət edilməsi aydın şəkildə göstərilib. Amma təəssüflər olsun ki, mediada informasiyanın dərc olunması zamanı bəzi hallarda Qanununun müvafiq tələblərinə, faktların və hadisələrin qərəzsiz və obyektiv təqdim olunması, birtərəfliliyə yol verilməməsi qaydalarına əməl edilmədiyinin şahidi olmuşuq. Dəfələrlə Baş Prokurorluq tərəfindən bir sıra media subyektləri və sosial şəbəkə istifadəçilərinə xəbərdarlıq edilib. Məlum olduğu kimi, Baş Prokurorluq media subyektləri və sosial şəbəkə istifadəçilərinə müraciət edərək hər zaman bildirir ki, dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparmadan yoxlanılmamış məlumatların yayılması yolverilməz olmaqla qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

### Sosial mediada "işləyən" qeyri-peşəkarlar...

Jurnalistikaya yad adamlar da informasiya sahəsinə can atırlar ki, müəyyən vasitələrlə ora müdaxilə edə bilsinlər. Bunlar sosial şəbəkələr vasitəsilə özlərini "xəbərçi" kimi qələmə verib neqativ addımlar atmağa cəhdlər edirlər. Canlı yayımlar açan şəxslər necə gəldi danışır, informasiya təqdim edir, bəzən şəxslərin həyatını təhlükəyə atacaq hallara yol verir. Bu problem də aktualdır.

Ekspertlər hesab edir ki, hazırda "vətəndaş jurnalistikası" deyilən bir nəsnə ortaya çıxıb və müəyyən adamlar cəmiyyətin informasiya təhlükəsizliyini ciddi şəkildə pozur və bəzən düşmənin bizim əleyhimizə yaydığı informasiyanı, videonu tirajlayırlar. Əlbəttə, bütün bunlar sosial şəbəkələrdə baş verdiyindən onun təsirinə daha çox adam düşə bilir. Qanun söz azadlığına tərəfdir, amma qanun imkan vermir ki, sosial şəbəkə istifadəçiləri, sosial media təmsilçiləri, eləcə də kütləvi informasiya vasitələri hansısa ziyanverici məlumatı yaysın, tirajlasın. Hesab edirik ki, bu yolu tutanlar bu sahəyə təsadüfən gəlib düşən və öz şəxsi maraqlarını güdən, yaxud başqasının maraqlarına xidmət edən insanlardır. Bizim qanunlarımız imkan vermir ki, kimsə milli, dini, irqi zəmində hansısa bir neqativ addım ata, müzakirə keçirə, dini-ekstremis çağırış edə, qruplaşma yaradıb xoşagəlməz davranış göstərə. Bizim qanunlarımız bu kimi hallara qarşıdır. Amma bəzən görürsən ki, sosial media üzərindən buna da cəhdlər edilir. Təbii ki, aidiyyatı dövlət qurumlarının keçirdiyi monitorinq nəticəsində bu şəxslər aşkara çıxarılır. Dövlətin müvafiq qurumları bu sahədə ayıq-sayıq dayanıb və prosesi dərindən izləyir. Qanuna zidd addım atan şəxslərə əvvəlcə müvafiq olaraq xəbərdarlıq edilir, bu hal davam edərsə həmin şəxslərə qarşı hüquqi-inzibati addımlar atılır. Heç şübhəsiz ki, bu başqalarına da dərs olmalıdır ki, söz azadlığından sui-istifadə edib uyğun olmayan informasiyalar yaymasınlar.

Bütün hallarda söz azadlığından sui-istifadə hallarının yayılmasının kökündə qanunun mükəmməl olmaması yox, məhz qeyri-peşəkarlıq dayanır. Qeyri-peşəkar yanaşma özlüyündə böyük fəlakətlərə yol açır. Başlıcası isə zərərli, milli və dövlətçilik maraqlarına zidd informasiyalarla rastlaşırıq.

Ekspertlər çox yerində deyirlər ki, söz azadlığı hüquqi dövlətin əsas təsisatlarındandır. Bəli, bu sahədə həm media, həm vətəndaşlar, həm də dövlət qurumları öz əlindən gələni etməlidir ki, söz azadlığından sui-istifadə edilməsin. Burada vacib məqamlardan biri də bu sahədə mütamadi olaraq maarifləndirici tədbirlərin keçirilməsidir. Necə ki, bir neçə gün əvvəl Baş Prokurorluq tərəfindən Qubada "Söz azadlığı və cəmiyyətin informasiya təhlükəsizliyi" mövzusunda işgüzar konfrans keçirilib. Bu cür konfransaların, maarifləndirici tədbirlərin keçirilməsi, daha intensiv hal alması vacibdir. MEDİA-nın da bu istiqamətdə həyata keçirdiyi işlər qeyd edilməlidir.

Bir sözlə, söz azadlığından sui-istifadənin qarşısının alınması, cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunmasına, KİV başda olmaqla, hər kəs öz töhfəsini verməlidir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**